KRED

„30 (918) 15 noyabr 2018-ci il

# SOLTAN ABBAS - 85

## Neftçalada şair günü



Noyabrın 1-də Neftçala rayonunda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzində tanınmış şair Soltan Abbasın 85 illik yubileyi ilə bağlı tədbir keçirildi. Tədbir boyu bölgələrdə ədəbiyyat işığını sönməyə qoymayan söz adamlarının fəaliyyətindən bəhs olundu. Bildirildi ki, Neftçala rayonu, ilk növbədə, Azərbaycanın ictimai-siyasi fikir tarixinə, ədəbiyyatına, mədəniyyətinə böyük töhfələr bəxş etmiş bir bölgədi. Bu bölgənin yaddaşında unudulmaz Əli bəy Hüseynzadənin, azadlıq nəğməkarı Xəlil Rza Ulutürkün, görkəmli şair Əliağa Kürçaylının, görkəmli ədəbiyyatşünas alim İmamverdi Əbilovun və başqalarının ruhu yaşayır. Soltan Abbas bu özül üstündə sənətə vəsiqə alan tanınmış şairlərimizdəndi. O, Azərbaycanın ən ucqar bir bölgəsində yaşayıb-yaratmasına baxmayaraq dərin səmimiyyətlə, özünəməxsus poetik ovqatla yazıb-yaradır. Azərbaycan torpağının füsunkar gözəlliyi, insanlarımızın böyük vətəndaşlıq duyğusu, yurd sevgisi, tarixə sədaqət hissi, qəhrəmanlıq ruhu Soltan Abbas yaradıcılığının başlıca mövzularıdır. Onun 85 illik ömrünün hər bir anı doğma vətənimizin varlığına, əbədi var olmasına şükranlıq duyğuları ilə bağlıdı. Soltan Abbas bütöv, bitkin bir şair ömrü yaşayıb. Həmişə şeirə-sənətə sədaqət hissilə yazıb-yaradıb. Soltan Abbas həmişə cəmiyyətdə baş verən qlobal dəyişmələrə, zamanın təbiətindən irəli gələn problemlərə həssaslıqla yanaşan söz adamıdı. Bu sarıdan həmişə narahat və nigarandı. Onun poeziyası insanı dirəniş göstərməyə, vəfalı olmağa, mərdliyə, əyilməzliyə səfərbər edir. Şeirlərinin qayəsi «insanda insan oyatmaq» istəyinə yönəlib. Bölgələrimizdə Soltan Abbas kimi qələmə və sözə etinalı, etibarlı, saf ruhlu insanlara həmişə böyük ehtiyac duyulur. Ona görə ki, belə insanlar bölgə həyatının saf ruhunu mərkəzə xüsusi qədirbilənliklə yansıdırlar. Ədəbiyyat müstəvisinə, ədəbi düşüncəyə yeni rəng qatırlar.

Qeyd olundu ki, Soltan Abbas Neftçala ziyalılarının yaxın dostu, ağsaqqallarından biridir. Ömrünün bu çağında da qələmi əlindən yerə qoymur, gənclik eşqi ilə yazıb-yaradır, gənc istedadların dostu-sirdaşı olaraq sevilir.

Tədbiri Neftçalada fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin direktoru Könül xanım açdı. B.Həşimov adına Boyat kənd orta məktəbinin müəllimi Nəcəfqulu Hacıyev yubilyar haqqında ətraflı məlumat verdi. Sonra şairin ömür yolundan fraqmentləri əks etdirən videoçarx nümayiş etdirildi.

Əməkdar artist Baloğlan Əşrəfov Soltan Abbasın şeirlərinə bəstələnmiş mahnıları ifa etdi. Sonra «Ədəbiyyat qəzeti»nin baş redaktoru Azər Turan S.Abbasın Neftçala ədəbi mühitindəki həmişə görünən yerindən, yaradıcılıq özəlliklərindən söz açdı.

Tanınmış şair və yazıçılardan Ənvər Əhməd, Oqtay Rza, Tahir Taisoğlu, Sərvaz Hüseynoğlu, Əli Rza Xələfli, Zabil Pərviz, Şirməmməd Nəzərli, Rüstəm Məlikov, eləcə də Neftçala ziyalıları Arif Nəbiyev, Vidadi Bəşirov çıxış edərək yubilyarın bənzərsiz şəxsiyyəti, çoxşaxəli yaradıcılığı barədə ürək sözlərini söylədilər.

Sonda Soltan Abbas onun yaradıcılığına diqqət göstərən, belə bir tədbirin keçirilməsinə şərait yaradan Neftçala Rayon İcra Hakimiyyətinin başçısına və tədbir iştirakçılarına minnətdarlığını bildirdi, yeni şeirlərini oxudu.

***Sərvaz HÜSEYNOĞLU***

**REDAKSİYA HEYƏTİ**

**Əli Rza Xələfli -** *baş redaktor* *(www.eli-rza-xelefli.net)*

Asif Rüstəmli
Ağarəhim Rəhimov
Bədirxan Başkeçidli
Cahid İsmayıloğlu
Elçin Kamal
Elçin Tanrıdağ (İsgəndərzadə)
Firuz Mustafa
Hafiz Rüstəm
Hüseynbala Mirələmov
İsa Həbibbəyli
Gülşən Əliyeva - Kəngərli
Gülxani Pənah
Qəzənfər Kazımov
Qəzənfər Paşayev
Qurban Bayramov
Mahmud Allahmanlı
Nizaməddin Şəmsizadə
Nizami Cəfərov
Nizami Məmmədov
Rəşid Şəfəq
Paşa Qəlbinur
Sabir Bəşirov
Salatın Əhmədli
Şəddat Cəfərov
Təyyar Salamoğlu
Vaqif Yusifli
Xanəli Kərimli
Yusif Nəğməkar

*Təsisçi:* Q. FİKRSST

*Buraxılışa məsul:* *Şəhla HACIYEVA*

Qəzet Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Lisenziya 022610
Dövlət qeydiyyatı haqqında şəhadətnamə № R-112
İndeks 0367

Azərbaycan Beynəlxal[...] Bankı Nərimanov filia[...]
kod 805250
Mh 000042AZM1046-[...]
hh 777706 AZM 3274-[...]

VÖEN 1100401891